UOT 339.56

AQRAR SAHƏDƏ XARİCİ - İQTİSADİ ƏLAQƏLƏRİN MÜASİR VƏZİYYƏTİ VƏ ONLARIN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

M.Ə.MƏMMƏDOVA

Məqalədə qeyd edilir ki, Azərbaycan Respublikasında bazar münasibətlərinin əsas prinsiplərinə əsaslanan müstəqil iqtisadiyyatın yaradılması və onun dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olunması məqsədilə köklü islahatlar aparılmışdır. Bu islahatların əsas istiqamətlərindən biri də ölkənin regionlarında tarazlı inkişaf etmək qabiliyyətinə malik olan istehlak bazarının formalaşdırılmasıdır. Belə ki, keçmiş dövrlərdə Azərbaycanda istehlak bazarı idxal malları hesabına təmin edilirdi. Lakin, məqalədə aparılmış təhlillər nəticəsində son dövrlərdə bu sahədə xeyli irəliləyişlərin olduğu qeyd edilir.

Açar sözlər: *idxal, ixrac, istehlak bazarı, xarici iqtisadi əlaqələr, tənzimləmə*

Azərbaycan Respublikasında müstəqilliyin ilk illərində aqrar sahənin böhran vəziyyətə düşməsi nəticəsində kənd təsərrüfatı istehsalının xeyli azalması müşahidə olunurdu. Buna baxmayaraq respublikada aparılan uğurlu islahatlar nəticəsində 1995-ci ildən aqrar sahədə böhranlı vəziyyət aradan qaldırılmışdır.

Bazar iqtisadiyyatının əsas prinsiplərinin formalaşması ilə əlaqədar son illərdə digər sahələrdə olduğu kimi, ölkənin aqrar sahəsindədə xarici-iqtisadi əlaqələrin həyata keçirilməsində müsbət dəyişikliklər yaranmışdır. Ölkəmizdə yaranmış belə bir iqtisadi şəraitin mövcudluğuna baxmayaraq hal-hazırda dünyada fasiləsiz olaraq baş verən dəyişikliklər prosesində mövcud olan böhranın təsir göstərməsi nəticəsində iqtisadi əlaqələrin dərinləşməsi istiqamətində bir sıra həlli vacib olan problemlər meydana çıxır. Bu problemlərin həlli üçün Azərbaycan Respublikasının dünya birliyi ilə aqrar münasibətlərinin mövcud reallıqları, bu sahədə xarici - iqtisadi əlaqələrin vəziyyəti, qiymət münasibətləri və inkişaf perspektivləri kimi problem məsələlər tədqiq olunmalıdır. Məhz bu baxımdan respublikanın aqrar sahəsində xarici-iqtisadi əlaqələrin dövlət tərəfindən tənzimlənməsi zəruri problemlərdəndir. Milli istehsalın inkişafı və əhalinin ərzaq təhlükəsizliyinin təmin olunması, kənd təsərrüfatı məhsullarının istehsalı və onunla bağlı olan sahələrin inkişafı bilavasitə aqrar sahədə mövcud olan xarici-iqtisadi əlaqələrin fəaliyyət mexanizmindən asılıdır.

Respublikanın xarici-iqtisadi əlaqələri sahəsində aparılan islahatlar respublikanın beynəlxalq bazara çıxmaq imkanlarını genişləndirir. Xarici-iqtisadi əlaqələrin sahəsində aparılan islahatlar bazar iqtisadi sisteminin üstünlükləri və çatışmamazlıqlarını özündə əks etdirir. Xarici iqtisadi əlaqələrin formalaşdırılması zamanı respublika suverenlik mövqeyindən çıxış etməlidir. Bunun üçün milli iqtisadiyyatı yeni bazar sisteminə uyğun formalaşdırmaq üçün respublikada aqrar sahədə önəmli iqtisadi islahatlar həyata keçirilmişdir. Respublikada müstəqillik əldə edildikdən sonra aqrar sahəni böhrandan çıxarmaq, iqtisadiyyatı sabitləşdirmək, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün iqtisadi islahatlar həyata keçirildi. «Sahibkarlıq fəaliyyəti haqqında» (15.11.1992), «Sovxoz və kolxozların islahatı haqqında» (18.02.1995), «Aqrar islahatların əsasları haqqında» (18.02.1995), «Torpaq islahatı haqqında» (16.07.1996), «Kiçik sahibkarlığa dövlət köməyi haqqında» (04.06. 1999), «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» (22 noyabr 2013-cü il tarixli qanuna əsasən yuxarıda göstərilən güzəştlərin müddəti 1 yanvar 2019-cu il tarixinədək uzadılmışdır) və s. Azərbaycan Respublikasının Qanunlarının qəbul edilməsinə zərurət zamanın tələbindən irəli gəlmişdir [1].

Respublika iqtisadiyyatında baş verən müsbət inkişaf meyllərini gücləndirmək və sosial sahədəki problemlərin həllini sürətləndirmək məqsədilə 24 noyabr 2003-cü il tarixdə «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikasının Prezidenti çox önəmli fərman imzalamışdır. Bu fərmandan irəli gələn müddəalara uyğun olaraq regionlarda sahibkarlığın inkişafını sürətləndirməklə oradakı əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın davamlı inkişafına, əhalinin məşğulluğunun artırılmasına və ölkədə yoxsulluğun səviyyəsinin azaldılmasına nail olmaq üçün 11 fevral 2004-cü il tarixdə «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında» və 14 aprel 2009-cu il tarixdə «Azərbaycan Respublikası regionlarının 2009-2013-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət

Proqramı təsdiq edilməsi haqqında» ölkə Prezidenti fərmanlar imzalamışdır [2]. Bununla əlaqədar olaraq, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının çərçivəsində başlanmış işlərin davam etdirilməsi məqsədilə «Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» hazırlanmış, 27 fevral 2014-cü il tarixdə ölkə Prezidentinin imzaladığı Fərmanla qüvvəyə minmişdir [3].

Cədvəl 1. Azərbaycan Respublikasının aqrar sahəsində idxalın əmtəə strukturunun dinamikası
[4, s.42-43 və s. 49-50]

Məhsulların adı	2008	2009	2010	2011	2012
milyon ABŞ dolları					
Cəmi	7170	6123,1	6600,6	9756	9653
Diri heyvanlar və heyvan mənşəli məhsullar	51,5	65,7	86,2	118.7	113,8
Bitki mənşəli məhsullar	519,6	313,9	437,4	519,6	500,1
Heyvan və ya bitki mənşəli piylər və yağlar	73,5	72,5	93,7	95,1	107,2
Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün	486,01	519,6	616,4	659,8	721,3
idxalda xüsusi çəkisi, faizlə					
Cəmi	100	100	100	100	100
Diri heyvanlar və heyvan mənşəli məhsullar	0,7	1,1	1,3	1,2	1,2
Bitki mənşəli məhsullar	7,2	5,1	6,6	5,3	5,2
Heyvan və ya bitki mənşəli piylər və yağlar	1	1,2	1,4	1	1,1
Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün	6,8	8,5	9,3	6,8	7,5

Yeni qəbul olunmuş Dövlət Proqramının əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır. Dövlət Proqramından irəli gələn müddəalara uyğun olaraq regionlarda sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi və sahibkarlığın inkişafının daha da sürətləndirilməsinə; iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması işinin davam etdirilməsinə; ixracyönümlü kənd təsərrüfatı və yeyinti məhsullarının istehsalının stimullaşdırılmasına; müasir tipli infrastruktur obyektlərinin yaradılmasına, mövcud obyektlərin beynəlxalq standartlara uyğunlaşdırılmasına və s. kimi problem məsələlərin həllinə nail olmaq üçün bu hüquqi sənədin qəbul olunması zəruridir.

Araşdırmalar göstərir ki, 2008-ci ildən başlayaraq Azərbaycan Respublikasına idxal olunan əsas növ kənd təsərrüfatı məhsullarının, o cümlədən ərzaq məhsullarının həcmi ildən ilə artaraq dəyişkənliyə məruz qalmışdır. Bunu cədvəl 1-dən aydın görmək olar.

Cədvəl 1-in statistik rəqəmlərindən göründüyü kimi 2008-ci ilə nisbətən 2012-ci ildə respublikaya xarici ölkələrdən idxal olunan diri heyvanlar və heyvan mənşəli məhsulların həcmi cəmi idxalın tərkibində 0,7 faizdən 1,2 faizə qalxmışdır. Həmin dövrdə xarici ölkələrdən idxal olunan heyvan və ya bitki mənşəli piylər və yağların, hazır ərzaq məhsulların, spirtli və spirtsiz içkilərin həcmində bir o qədər artım müşahidə edilmişdir. Bununla belə həmin dövrdə Azərbaycan Respublikasına qonşu ölkələrlə yanaşı uzaq xarici ölkələrdən də xeyli taxıl və taxıl məhsulları, ət və ət məhsulları, süd və süd məhsulları, şəkər, tütün məhsulları, şərab və şərab məhsulları, eləcə də digər növ spirtli içki məhsulları idxal olunmuşdur.

Ölkəmizdə idxal əməliyyatlarını tənzimləmək məqsədilə «Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında» (aprel 2001, aprel - sentyabr 2004), «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri»ndə dəyişiklik edilməsi barədə (iyun 2003) və «Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri»ndə bəzi mallar üzrə spesifik gömrük idxal dərəcələri advalor gömrük idxal rüsum dərəcələri ilə əvəz edilməsi» barədə (aprel 2004) Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarları qəbul olunmuşdur [2]. Bu normativ-hüquqi bazanın formalaşmasından sonra 2008-2012-ci illərdə xarici ölkələrdən idxal olunan buğda üzrə ayrı-ayrı ölkələrin xüsusi çəkisi biri digərindən əsaslı dərəcədə fərqlənməsi vəziyyəti müşahidə olundu (cədvəl 2).

Cədvəl 2-dən göründüyü kimi, 2008-2012-ci

Cədvəl 2. Azərbaycan Respublikasına idxal olunan buğdanın dinamikası [4, s. 85, 120, 159, 204, 242]

Ölkələrin adı	Ölçü vahidi	2008	2009	2010	2011	2012
Rusiya	miqdarı, min ton	726,5	692,7	151,4	359,1	258,9
	məbləği, mln. ABŞ dolları	186,5	146,7	31,5	87,4	82,7
Qazaxıstan	miqdarı, min ton	469,3	201,4	1148,4	675,3	1100,3
	məbləği, mln. ABŞ dolları	150,9	43	249,8	156	255,3
Ukrayna	miqdarı, min ton	112,4	37,2	-	-	-
	məbləği, mln. ABŞ dolları	30,7	5,1	-	-	-
İran islam Respublikası	miqdarı, min ton	-	-	23,1	11,3	2,6
	məbləği, mln. ABŞ dolları	-	-	2,8	3,7	0,3
Özbəkistan	miqdarı, min ton	-	-	7	120,8	-
	məbləği, mln. ABŞ dolları	-	-	1,2	34,9	-
Almaniya	miqdarı, min ton	-	-	0,1	-	-
	məbləği, mln. ABŞ dolları	-	-	0,1	-	-
Türkmənistan	miqdarı, min ton	-	-	-	-	3,4
	məbləği, mln. ABŞ dolları	-	-	-	-	0,995
Digər ölkələr	miqdarı, min ton	1,2	-	-	0,1	1,1
	məbləği, mln. ABŞ dolları	0,3	-	-	0,06	0,5
Cəmi	miqdarı, min ton	1309,3	931,3	1330	1166,6	1366,3
	məbləği, mln. ABŞdolları	368,4	194,8	285,4	282	339,8

illərdə xarici ölkələrdən ən çox buğda idxal edən ölkələr Rusiya Federasiyası, Qazaxstan, Ukrayna, İran İslam Respublikası, Özbəkistan, Almaniya, Türkmənistan və digər ölkələrdir. Təhlil nəticəsində məlum olur ki, buğdanın idxalının həcmi 2008-ci ildə Rusiyadan 726,5 min ton (186,5 milyon ABŞ dolları), Qazaxıstandan 469,3 min ton (150,9 milyon ABŞ dolları), Ukraynadan 112,4 min ton (30,7 milyon ABŞ dolları) və digər ölkələrdən 1,2 min. ton (0,3 milyon ABŞ dolları) təşkil etmişdir. Qeyd edilməlidir ki, 1995-ci illə müqayisədə 2012-ci ildə Özbəkistanda pambığın əkin sahəsi azaldılmış, həmin sahəyə buğda əkilərək bu məhsul növünün istehsal həcminin artırılmasına nail olunmuşdur. Eyni vəziyyət Ukraynada da müşahidə edilir. Belə ki, Ukraynada 1995-ci ilə nisbətən 2012-ci ildə şəkər çuğunduru altından azad edilmiş torpaqlarda buğda əkilərək onun istehsalı xeyli artırılmışdır. Belə vəziyyət Rusiya Federasiyasının ayrı-ayrı vilayətlərində də müşahidə edilir. Apardığımız sorğu nəticəsində məlum olmuşdur ki, MDB-yə daxil olan ölkələrin əksəriyyətində buğdanın inkişafına üstünlük verilir. Bununla da həmin ölkələrdə buğdaya olan istehlak tələbatı əsasən daxili istehsal hesabına ödənilir. Eyni zamanda da həmin ölkələrdə buğda istehsalı heyvandarlığın inkişafına, ət və ət məhsullarının, eləcə də süd və süd məhsullarının artımına şərait yaradır ki, bununla da əhalinin ərzaq təhlükəsizliyi probleminin həlli asanlaşır.

Hesab edirik ki, ölkəmizdə buğda problemini daxili istehsalı artırmaq yolu ilə həll etmək olar. Azərbaycan şəraitində taxılçılığın daha da inkişaf etdirilməsi üçün əlverişli olan torpaqlardan səmərəli istifadə edilməlidir. Uzun müddət toplanmış təcrübə təsdiq edir ki, Azərbaycan Respublikasının suvarılan və dəmyə torpaqlarından yüksək məhsuldarlıq əldə etmək mümkündür. Bunun üçün ilk növbədə taxıl toxumçuluğunun inkişafına üstünlük verilməli, istehsal edilən taxılın satış qaydası təkmilləşdirilməli, idxal və ixrac əməliyyatları üzrə yeni siyasət hazırlanaraq təcrübədə sınaqdan keçirilməlidir. Başqa sözlə desək, buğda bazarını qorumaq yolu ilə ölkə əhalisinin taxıl və taxıl məhsullarına istehlak tələbatının əsasən daxili istehsal hesabına ödənililməsinə nail olunmalıdır.

2008-2012-ci illərdə Azərbaycan Respublikasından ixrac edilən əsas növ kənd təsərrüfatı və ərzaq məhsullarının tərkibi və dinamikasında baş verən meylləri cədvəl 3-dəki statistik məlumatlardan daha aydın görmək olar.

Statistik məlumatlardan rəqəmlərdən göründüyü kimi Azərbaycandan ixrac olunan əsas növ kənd təsərrüfatı və ərzaq məhsullarının tərkibində bitki yağı, pambıq lifi, meyvə, tərəvəz və digər növ məhsullar daha üstün xüsusi çəkiyə malikdir. Bununla belə, 2008-ci ilə nisbətən 2012-ci ildə Azərbaycandan ixrac olunan təzə və dondurulmuş balığın, kartof, təzə tərəvəz və meyvənin, buğda ununun, hidrogenləşdirilmiş piylər və yağların, nərə kürüsünün, meyvə və tərəvəz şirələrinin, tünd spirtli içkilərin, siqaretin həcmi əhəmiyyətli dərəcədə azalmış, çayın, ətriyyat və əczaçılıq üçün bitkilərin, şəkər çuğundurunun, bitki yağlarının, marqarinin, digər qida qarışıqlıqlarının, şəkərin, üzüm şərabının, tütünün həcmi isə artmışdır.

Cədvəl 3. Azərbaycan Respublikasının aqrar sahəsindən ixrac edilən əsas növ məhsulların dinamikası [4, s.79 və 81]

Məhsulların adı	2008	2009	2010	2011	2012
Təzə və dondurulmuş balıq, ton	513,2	489,8	244,7	270	-
Kartof, ton	86385,3	85519,5	63977,9	91719,8	58797,4
Təzə tərəvəz, ton	79615,1	64406,1	54303,6	65789,4	54623,7
Təzə meyvə, ton	272465,3	232794,6	187359,1	176221,6	220358,1
Çay, ton	5251,8	6266,4	8126,3	7520,4	7036
Buğda unu, ton	28499,9	13698,8	23,5	-	60
Ətriyyat və əczaçılıq üçün bitkilər,ton	3794,8	3512,5	2083,4	5261,5	8543,6
Şəkər çuğunduru, ton	16895,6	2625,5	14099,2	22621,8	34770
Bitki yağları, ton	24072,7	21137	27934	24015,6	33418,3
Hidrogenləşdirilmiş piylər və yağlar, ton	32033,2	21509,8	34875,6	30398,9	29613,1
Marqarin, digər qida qarışıqları, ton	15357,4	11909,4	15568,3	14606,8	17996,7
Nərə kürüsü, ton	2	2,9	0,3	0,1	-
Şəkər, min ton	165,1	177	203,9	221,7	213,2
Meyvə və tərəvəz şirələri, ton	35562,7	22658,4	18739,9	13744,4	8617,9
Üzüm şərabı, min dkl.	183,3	142	223,9	338,4	389,4
Tünd spirtli içkilər, min dkl. 100%-li spirtlə	598,2	322,9	323,1	230,1	304,1
Tütün, ton	2259,5	1767,1	2106,6	2872,1	2714,1
Siqaret, mln ədəd	129,8	206,2	116,1	-	30,6

Araşdırmalar göstərir ki, MDB ölkələri, xüsusilə Rusiya ilə Azərbaycanın ticarət dövriyyəsinin aşağı düşməsi bu ölkədə baş verən maliyyə böhranı və siyasi vəziyyət ilə bilavasitə bağlıdır. Belə ki, həmin vəziyyət bütün MDB ölkələrinə, o cümlədən Azərbaycana təsir etmişdir. Azərbaycandan Rusiyaya ixrac edilən bir sıra malların – tütünün, bəzi kənd təsərrüfatı və sənaye məhsullarının ixrac səviyyəsi kəskin şəkildə aşağı enmişdir [5, 6, 7].

Son illərdə ölkəyə gətirilən əsas növ kənd təsərrüfatı və ərzaq məhsullarının həcmi artır, bazarda istehlak məhsullarının miqdarı çoxaldıqca bazarda qiymətlərin səviyyəsi sabitləşir və əhalinin həyat şəraitinin yaxşılaşması meyli müşahidə olunur. Azərbaycan Respublikasında kənd təsərrüfatının çoxsahəliliyi ölkədən bir çox məhsul növlərinin ixracına, ayrı-ayrı çoxsaylı xarici dövlətlərlə iqtisadi əlaqələrin yaranmasına səbəb olmuşdur. Azərbaycan Respublikasının statistik məlumatlarının təhlili göstərir ki, ölkəmiz uzun müddət pambıq lifi, tez

yetişən tərəvəz məhsulları, meyvə, şərab məhsulları, konyak, qoz, fındıq, subtropik bitkilərdən – limon, portağal, çay, bitki yağı və sair kənd təsərrüfatı və ərzaq məhsulları ixrac etmiş və edir. Əgər respublikamız müstəqillik əldə edənədək (1991-ci iladək) mərkəzləşdirilmiş bölgü əsasında kənd təsərrüfatı və ərzaq məhsullarını yalnız Rusiya Federasiyasına və digər müttəfiq respublikalara ixrac edirdisə, müstəqillik əldə etdikdən sonra həmin dövlətlərlə iqtisadi-siyasi əlaqələr zəifləmiş, iqtisadi münasibətlər, xüsusilə alqı-satqı münasibətləri məhdudlaşmış və bütün bunların nəticəsi olaraq ölkəmiz sərbəst, azad və müstəqil olaraq digər yaxın və uzaq xarici dövlətlərlə kənd təsərrüfatı və ərzaq məhsullarının ticarətini genişləndirməyə başlamışdır.

Respublikanın aqrar sahəsində xarici-iqtisadi əlaqələrin dövlət tənzimlənməsinin əsas istiqamtləri aşağıdakılardı:

- xarici iqtisadi fəaliyyətin hüquqi prinsiplərini müəyyənləşdirən normaların işlənib hazırlanması və onların tənzimlənməsi;
- xarici iqtisadi əlaqələri tənzimləyən orqanların statusunun müəyyənləşdirilməsi;
- xarici iqtisadi əlaqələrin dövlət tənzimlənməsini müəyyənləşdirmək, respublikada müştərək müəssisələrin tikilməsinin normativ aktlarını tərtib etmək;
- ixrac rejimini müəyyənləşdirmək, ixracı lisenziyalaşdırmaq, məhsulların idxal-ixrac qaydasını müəyyənləşdirmək;
- valyuta, gömrük tənzimlənməsini həyata keçirmək;
- xarici iqtisadi əlaqələrdə iştirak edən dövlətlərin marağının qorunması tədbirlərini həyata keçirmək və s.

Beləliklə, muasir iqtisadi şəraitdə qloballaşan dünyada iqtisadi inteqrasiyasının gücləndiyi bir zamanda hər bir ölkədə, o cümlədən Azərbaycan Respublikasında ölkənin ərzaq bazarının formalaşması, inkişafı və təhlükəsizliyinin təmin edilməsi istiqamətində aqrar sahənin üzərinə çox böyük vəzifələr düşür. Bunlar isə ilk növbədə ölkədə aparılan iqtisadi islahatlardan və onun vacib sahələrindən olan uğurlu xarici-iqtisadi siyasətindən çox asılıdır.

ƏDƏBIYYAT

1.Azərbaycan Respublikasının Qanunlar Külliyyatı, 3 cilddə, Bakı: Diqesta, I c., 2001, 1038 s., II c., 2001, 1053 s. və III c., 2002, 1053 s. **2.**İlham Əliyev və müasir aqrar siyasət (layihənin rəhbəri və məsul redaktor E.R.İbrahimov) Bakı: Azərnəşr, 2013, 936 s. **3.**«Azərbaycan Respublikası regionlarının (2014-2018-ci illər) sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı, 2014, 27 fevral. **4.**Azərabycanın xarici ticarəti (2008-2012). Statistik məcmuə / Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı: 9 № - li kiçik müəssisə, 2013, 278 s. **5.**Xəlilov H.A. Milli ərzaq təhlükəsizliyi: bazar transformasiyaları və iqtisadi qloballaşma amilləri. Bakı: Adiloğlu, 2001, 176 s. **6.**Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı: «Nurlar», Nəşriyyat- Poliqrafiya Mərkəzi, 2004, 504s. **7.**Abbasov V.H. Aqrar sahədə iqtisadi tənzimləmənin aktual problemləri. Bakı: MBM, 2012, 424 s.

Современное состояние внешнеэкономических отношений в аграрном секторе и пути их регулирования

М.А.Мамедова

В статье отмечается, что в Азербайджанской Республике основываясь основным принципом рыночных отношений, проводятся коренные реформы с целью создания независимой экономики и его эффективной интеграции в мировую систему хозяйства. Одним из направлений этих реформ в регионах Азербайджанской Республики является формирование потребительского рынки, который имеет способность равновесного развития. Так раньше продовольственный рынок в Азербайджане обеспечивался за счет импортных товаров. Однако, в статье в результате проведенных анализов, отмечается что, за последнее время в этой области произошли определенные сдвиги.

Ключевые слова: экспорт, импорт, потребительский рынок, внешнеэкономические отношения, регулирование.

Current state of the external economic relations in agrarian sector and a way of their regulation

M.A.Mammadova

In article it is noted that in the Azerbaijan Republic in the conditions of transition to the market relations reasonable creation of independent economy and for the purpose of effective integration into world system of economy radical reforms are carried out. One of the directions of these reforms in regions of the Azerbaijan Republic is formation of the consumer market which has ability of equilibrium development. The food market in Azerbaijan was provided at the expense of import goods some years ago. But recently in this area there were certain shifts.

Keywords: export, import, consumer market, external economic relations, regulation